**AZƏRİ-AUDİT**
**AUDİTOR FİRMASI**

**AZERI-AUDIT**
**AUDITING FIRM**

AZ-1033 Bakı, A.M.Cümə küçəsi 1C, mən.7
Tel:(+99412) 5117808; Mob:(+99450) 2101357

VOEN: 1300539751
E-mail: azeriaudit@mail.ru

7 apm., 1C A.M.Cuma St, Baku AZ-1033
Tel:(+99412) 5117808 Mob: (+99450) 2101357

## Müstəqil Auditorun Konsolidə Edilmiş Hesabatı

**«ABAK-Az Crow e LTD» MMC-nin təsisçisinə,**
**Bakı şəhəri, Yasamal rayonu Şərifzadə, ev 33, mənzil 5,**
**Bakı-Azərbaycan Respublikası.**

Biz «ABAK-Az Crow e LTD» MMC-nin 31 dekabr 2018-ci il tarixə bitən il üzrə Mühasibat balansından, Mənfəət və zərər haqqında Konsolidə Edilmiş Hesabatından, Kapitalda dəyişikliklər haqqında Konsolidə Edilmiş Hesabatından, Pul vəsaitlərinin hərəkəti haqqında Konsolidə Edilmiş hesabatdan və uçot siyasətinə xülasəsinin və digər izahedici qeydlərindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasıı apardıq.

### Menecmentin Konsolidə Edilmiş Maliyyə Hesabatları üzrə məsuliyyəti

Menecment bu Konsolidə Edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına və Azərbaycan Respublikası Mülki Məcəlləsinə uyğun olaraq hazırlanmasına və ədalətli şəkildə təqdim edilməsinə cavabdehdir. Bu cavabdehliyi Konsolidə Edilmiş Maliyyə Hesabatlarının hazırlanması və ədalətli təqdim edilməsi zamanı qəsdən və yə xəta nəticəsində yaranan əhəmiyyətli səhvlərin yaranmaması üçün daxili nəzarətin təşkili. tətbiqi və saxlanması; uyğun uçot siyasətinin və şəraitə uyğun olaraq müvafiq mühasibat qiymətləndirmələrinin tətbiq edilməsi daxildir.

### Auditorların məsuliyyəti

Bizim məsuliyyətimiz audit yoxlamasına əsasən bu Konsolidə Edilmiş Maliyyə Hesabatları üzrə rəy ifadə etməkdir. Biz öz audit yoxlamamızı Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirmişik. Bu standartlar etik tələblərə riayət etməyi və Konsolidə Edilmiş Maliyyə Hesabatlarında əhəmiyyətli səhvlərin olmamasından əmin olmaq üçün auditi planlaşdırmağı və yerinə yetirməyi tələb edir.

Auditə Konsolidə Edilmiş Maliyyə Hesabatlarında açıqlanan məbləğlərə dair audit sübutlarının əldə edilməsi üçün prosedurаlarının işlənib hazırlanması daxildir. Bu prosedurаlar qəsdən və ya xəta nəticəsində yaranan əhəmiyyətli səhvlər üzrə risklərin qiymətləndirilməsi də daxil olmaqla bizim mühakiməmizə əsasən seçilmişdir. Bu qiymətləndirmələri həyata keçirərkən biz belə hesab edirik ki, daxili nəzarət Cəmiyyətin Konsolidə Edilmiş Maliyyə Hesabatlarının hazırlanması və ədalətli təqdim olunması sisteminə uyğundur. Burada məqsəd Cəmiyyətin daxili nəzarətinin səmərəliliyi üzrə rəy ifadə etmək deyil, şəraitə uyğun olaraq audit prosedurаlarının işlənib hazırlanmasıdır.

Auditə həmçinin, istifadə edilmiş mühasibat prinsiplərinin doğruluğunun və menecment qiymətləndirmələrinin, eyni zamanda Konsolidə Edilmiş Maliyyə Hesabatlarının ədalətliliyinin qiymətləndirilməsi daxildir.
Biz inanırıq ki, əldə etdiyimiz audit sübutları audit rəyini formalaşdırmaq üçün kifayətdir və uyğundur.

**Audit Hesabatı**

Bizim fikrimizcə, Konsolidə Edilmiş Maliyyə Hesabatları bütün əhəmiyyətli aspektlərdən «ABAK-Az Crow e LTD» MMC-nin 31 dekabr 2018-ci il tarixə bitən il üzrə maliyyə vəziyyətini, onun maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına və Azərbaycan Respublikası Mülki Məcəlləsinə uyğun olaraq ədalətli şəkildə əks etdirir.

**Digər Hüquqi və Tənzimləyici tələblərə dair məlumatlar**

Azərbaycan Respublikası Mülki Məcəllәsinə uyğun olaraq əlavə olaraq təsdiq edirik ki,
1. Biz audit üçün lazım olan bütün məlumatları və izahatları əldə etmişik (almışıq).
2. Müvafiq hesablar üzrə çıxarışlar Cəmiyyət tərəfindən təsdiq olunmuşdur.
3. Mal-material qalığının sayılması Menecment tərəfindən qəbul edilmiş prinsiplər əsasında həyata keçirilmişdir.
4. Konsolidə Edilmiş Maliyyə Hesabatları ilə əlaqədar Rəhbərliyin Konsolidə Edilmiş Hesabatındakı məlumatlar Cəmiyyətin mühasibat uçotunun məlumatları ilə eynidir.
5. Bizim il ərzində Cəmiyyətin maliyyə vəziyyətinə və əməliyyatlarının nəticələrinə əhəmiyyətli təsir göstərə biləcək yuxarıda göstərilən qanunun və Cəmiyyətin Nizamnaməsinin tələblərinin pozulması halları haqqında məlumatımız yoxdur.

**Rafiq Namazəliyev**

**Direktor** R. Nam

**Fuad Namazəliyev**

**Auditor** F Nam

"AZƏRİ-AUDİT" AUDİTOR FİRMASI

25 iyun 2019-cu il
Bakı, Azərbaycan Respublikası